

Hörmətli cənab Hadırka!

Bu günlərdə Azərbaycan və Moldova üçün eyni qədər qiymətli olan dostumuz, hüquq elmləri doktoru, tanınmış ictimai xadim və iş adamı Vüqar Novruzov xoş bir xəbər verdi. Siz Moldova Elmlər Akademiyasının vitse-prezidenti, həmçinin Akademiyanın Sosial Elmlər, İqtisadiyyat, Humanitar Elmlər və İncəsənət Seksiyasının rəhbəri seçilmisiniz.

Sizi, çağdaş Moldova və Rumıniya tarixinin tanınmış simasını, görkəmli şair və siyasi xadimini səmimiyyətlə təbrik edirik. Sizin bütün fəaliyyətiniz zamanı həmişə Azərbaycanın dostu olmanızı, Azərbaycan ədəbiyyatından, xüsusən, dahi Azərbaycan şairi Nizami Gəncəvidən elədiyiniz tərcümələri, həmçinin Azərbaycana həsr etdiyiniz seir silsiləsini məmnuniyyətlə xatırlayır, bundan sonrakı fəaliyyətinizin, ilk növbədə, Moldova üçün, sonra isə Azərbaycan-Moldova elmi, ədəbi-mədəni əlaqələri üçün səmərəli olacağına əminliyimizi ifadə edirik. Sizə möhkəm cansağlığı, yorulmazlıq arzu edirik.

İnanırıq ki, lap yaxın günlərdə bu arzularımızın gerçəkləşməyinə şahidlik edəcəyik.

Hörmətlə,

**_Səlim BABULLAOĞLU_**

*Azərbaycan Yazıçılar Birliyinin Beynəlxalq Əlaqələr və Tərcümə Məsələləri üzrə katibi*